*Konül MƏMMƏDOVA*

# PATENT TELEVİZİYA LAYİHƏLƏRİ VƏ AZƏRBAYCAN TELEMƏKANI


## РЕЗЮМЕ

Эта статья предоставляет общую информацию о телевидении и телевизионных передачах. Что такое патенты и патентные телевизионные трансляции? На эти вопросы ответили. Образцы патентных телевизионных передач были предоставлены.


***Ключевые слова:*** Телевидение, телепередачи, патенты, патентные трансляции, телевизионные проекты


## SAMMARY

In this article, general information is provided about television and television broadcasts. What are patent and patent television broadcasts? Theese questions are answered. Examples are noted about patent television broadcasts.


***Keywords:*** Television, television broadcasts, patent, patent broadcasts, television projects

Televiziyanın həyatımızdakı rolu və əhəmiyyəti ən mühüm məsələlərdəndir. Bu gün televizor evimizin sadəcə maraqlı əşyası deyil, həm də həyatımızın vacib atributlarından biridir. Biz müxtəlif məqsədlərlə televiziya izləyirik. İnformasiya tələbatımızı qarşılayır, maarifləndirir və ya sadəcə asudə vaxtımızı dəyərləndiririk. Televiziyanın ixtirasından uzun illər keçsə də, "Sehrli qutu" öz sirrini saxlayır, mavi ekranın cazibəsi davam edir. Televiziyanın inkişafı yeni kanalların meydana gəlməsinə səbəb olur. Televiziya kanallarının sürətli və geniş şəkildə yayılması ötən əsrin ortalarına təsadüf edir. Kanalların sayı artdıqca, onlar arasında rəqabət də formalaşır. Günümüzdə kanalların ən böyük problemi məhz reytinq məsələsidir. Hal-hazırda dövlət kanalları ilə yanaşı özəl kanallar da fəaliyyət göstərir. Kanalların əsasını müxtəlif layihələr və verilişlər təşkil edir. Hər bir kanal reytinq qazandıran veriliş axtarışındadır. Televiziya verilişlərinin özünəməxsus xüsusiyyətləri var. Dünyada ilk televiziya verilişi 1936-cı ildə Londonda olmuşdur. Azərbaycanda isə televiziyanın yarandığı ilk illərdə "Azərbaycan bəstəkarlarının portretləri", "Ədəbiyyat və incəsənət", "Azərbaycan ədəbiyyatının klassikləri", "Görkəmli səhnə ustaları", "Bakının teatr və konsert salonlarında", "Lenin mükafatı laureatları", "Məktəb və həyat", "Xalq drujinaçısı", "Bizim qonaqlarımız", "Festival qarşısında" və s. bu kimi verilişlər yayımlanmışdır. Televiziya verilişləri müxtəlif mövzularda ola bilir: Təhsil, mədəniyyət, musiqi, əyləncə, xəbər, idman, din və s. Televiziya verilişi hazırlamaq asan iş deyil. Bir veriliş ekrana gəlməmişdən əvvəl müxtəlif mərhələlərdən keçir. İlk olaraq, izləyici marağı, reytinq məsələsi nəzərə alınır. Burada əsas məsələ isə verilişin mövzusunun təyin olunmasıdır. Mövzu seçilərkən onun yeni və fərqli olmasına diqqət edilməlidir. Lakin televiziya verilişlərinin sayının çox olduğu bir dövrdə yeni və fərqli mövzu tapmaq olduqca çətindir. Bu zaman mövcud və ya bitmiş verilişlərin formatlarından istifadə edilir. Bu məsələlər hüquqi yollarla həyata keçirilməlidir. Bir çox hallarda isə hüquqi qaydalara əməl edilmir və piratçılıq meydana gəlir. Nəticədə, televiziyada "patent və pirat verilişlər" anlayışı formalaşmağa başlayır.

Patent dedikdə, müəlliflik hüququnu göstərən sənəd başa düşülür. Hər hansı bir məhsulun patent alması üçün ən başlıca şərt onun yeni olmasıdır. Televiziya verilişinin formatı əgər yenidirsə, onun yaradıcısı və ya fikir sahibi müəllif adlanır.[1] Müəllif verilişi üçün patent almaq istəyirsə, ilk olaraq iddia sənədi təqdim etməlidir. İddia sənədinə etiraz edilmirsə və təsdiq edilirsə, patent almaq mümkündür. Respublikamızda patent Əqli Mülkiyyət Agentliyi tərəfindən verilir. Əvvəl isə bu qurum Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət





Agentliyi adlanırdı. Respublikamızda patent məsələləri "Patent haqqında qanuna" əsasən həyata keçirilir. Bu qanun 7 fəsil, 44 maddədən ibarətdir və 1995-ci il iyulun 25-də qəbul edilmişdir. Müəllif televiziya layihəsi üçün patent aldıqdan sonra onun razılığı olmadan üçüncü şəxs tərəfindən verilişin icazəsiz istehsalının, istifadəsinin, satış üçün təklif olunmasının, satışının və bu məqsədlər üçün idxalının qarşısını almaq hüququna malik olur. Patent sahibi patentlə verilən hüquqlardan dövlətin və cəmiyyətin mənafelərinə xələl gətirmədən istifadə etməlidir. Televiziya layihəsinin bir neçə müəllifi ola bilər. Bu zaman onların hər biri patent almaq hüququna malikdir. Patenti bir neçə şəxsə məxsus olan layihədən istifadə üzrə münasibətlər isə həmin şəxslər arasında bağlanmış müqavilə ilə müəyyənləşdirilir. Bu cür müqavilə olmadıqda onların hər biri layihə üzrə lisenziyanın və ya patentlə bağlı hüquqların digər şəxsə verilməsindən başqa bu məhsuldan istədiyi kimi istifadə edə bilər. Patent almış şəxs artıq müəllif hüquqlarına malik olur. Müəllif hüquqlarının tənzimlənməsi, qorunması və s. üzrə məsələlər isə "Müəlliflik hüququ və əlaqəli hüquqla haqqında Azərbaycan Respublikasının Qanunu"na əsasən həyata keçirilir. Hər hansı bir televiziya verilişi və ya layihəsi müəllifinin xəbəri, icazəsi olmadan yayımlanırsa, bu artıq onun hüquqlarının pozulması deməkdir. Ona görə də əgər orijinal veriliş hazırlaya bilmir və başqa müəllifə məxsus layihə yayımlamaq istəyiriksə, mütləq onun lisenziyasını, yəni, yayım üçün icazəsini almalıyıq.[2]

Keçmişdən bu günə qədər müxtəlif televiziya layihələri yayımlanmışdır. Onların çoxu öz orijinallığı ilə seçilmiş və dünyada böyük marağa səbəb olmuşdur.Biz bu verilişləri patent adlandıra bilərik. Çünki yeni və özünəməxsus formatları ilə seçilmiş, müxtəlif ölkələrdə versiyaları yaradılmışdır. Hətta elə verilişlər var ki, ilk buraxılışlarından uzun müddət keçməsinə baxmayaraq, hələ də yayımlarına davam edirlər.

Öz formatı ilə televiziya tarixində iz qoymuş layihələrdən biri "Wheel of fortune" (Taleh çarxı) verilişidir. Bu veriliş 1975-ci ildə ABŞ-ın NBC kanalında yayım həyatına başlamışdır. Həmin il Türkiyənin TRT 1 kanalında da "Çarkıfelek" (Çərxifələk) adıyla yayımlanmışdır. Verilişin müəllifi Merv Griffindir. 1990-cı ildə isə Rusiya televiziyasında "Поле чудес" (Möcüzələr sahəsi) adıyla ilk buraxılışı başlamışdır. Veriliş öz aktuallığını, baxımlılığını hələ də saxlayır. İlk buraxılışından 44 il keçməsinə baxmayaraq, hələ də müxtəlif telekanallarda yayım həyatına davam edir.[3]

Orijinallığı ilə seçilən və ən nəhəng layihə hesab edilən Fort Boyard Azərbaycan televiziyasında da yayımlanmışdır. Müəllifi Jacques Antoine olan layihə yayım həyatına 1990-cı il iyulun 7-də Fransa televiziyasında başlamışdır. Müxtəlif ölkələr tərəfindən lisenziyası alınmış və bir çox versiyası yaradılmışdır. Rusiya versiyası daha çox populyarlıq qazanmışdır. Ölkəmizdə isə "Azad Azərbaycan" kanalında 2013-2014-cü illərdə yayımlanmış, aparıcılar Zaur Baxşəliyev və Mətanət Əliverdiyeva olmuşdur.[4]

Televiziya tarixinin ən məşhur layihələrindən biri də "Who wants to be a millionaire?" (Kim milyonçu olmaq istəyir?) verilişidir. Bu veriliş ilk dəfə İngiltərədə, 1998-ci il sentyabr ayının 4-də yayımlanmışdır. David Briggs, Mike Whitehill və Steven Knight tərəfindən yaradılmış layihənin müxtəlif versiyaları mövcuddur. Bu layihə Türkiyədə ilk olaraq, Show TV-də, daha sonra isə Kanal D-də yayımlanmışdır. 2011-ci il avqustun 2-də isə ATV kanalında yayımlanmağa başlamışdır. "Kim Milyoner Olmak İster?" adıyla yayım həyatına davam edən verilişin reytinqi də çox yüksəkdir. Azərbaycanda isə Milyonçu adıyla 2002-ci il avqustun 9-da yayım həyatına başlamışdır. Lider telekanalında yayımlanmış layihə ölkəmizdə də ən baxımlı veriliş olmuşdur. [5]

Dünyanın əllidən çox ölkəsində yayımlanan "The Voice" (Səs) verilişinin orijinal formatı Hollandiyaya məxsusdur. Müəllifi John de Mol olan veriliş yayım həyatına 2010-cu ildə başlamışdır. Münsiflər heyəti, iştirakçıları və maraqlı anları ilə qısa müddətdə populyarlıq qazanmışdır. Türkiyədə yayımlanmasıyla ölkəmizdə də böyük marağa səbəb olmuşdur. "O Ses Türkiye" adıyla ilk dəfə 2010-cu il oktyabr ayının 10-da Show TV-də yayımlanmış veriliş Türkiyə televiziyasında ən çox reytinqə sahib olan layihələrdən biri olmuşdur. 2015-ci ildə isə lisenziyası alınaraq, Azərbaycan televiziyasında yayımlanmışdır. [6]

Patent və orijinal verilişlərə aid olan bu nümunələri nəzərdən keçirərkən görürük ki, dünyada iz qoymuş layihələrin çoxu məhz yarışma formatındadır. Bu verilişlərin baxımlı olmasında texniki məsələlərin, aparıcı, münsif, iştirakçı seçimlərinin rolu böyükdür. Lakin ən mühüm məsələ layihənin formatıdır. Fərqli və orijinal formatlar daima izlənilir. Belə layihələr yaşa-

dığı ölkədən, yaşından, cinsindən asılı olmayaraq, bütün televiziya izləyicilərinin diqqətini çəkir.

Azərbaycan teleməkanında yayımlanmış və yayımlanmaqda olan verilişlərin, layihələrin formatlarının çoxu isə çox təəssüf olsun ki, orijinal deyil. Onlar müxtəlif dünya və qonşu ölkələrin televiziyalarından götürülüb. Lakin milli televiziyanın orijinal və patent verilişlərə ehtiyacı var. Bu televiziyanın ən mühüm problemlərindən sayılır. Bu problem isə yalnız güclü ideya və fikirlərlə, həmçinin, lazımi şərait və imkanlarla öz həllini tapa bilər.

## ƏDƏBİYYAT


1. https://az.wikipedia.org/wiki/Patent
2. http://www.e-qanun.az/framework/3934
3. https://tr.wikipedia.org/wiki/%C3%87ark%C4%B1felek_(yar%C4%B1%C5%9Fma)
4. https://ru.wikipedia.org/wiki/%D0%A4%D0%BE%D1%80%D1%82_%D0%91%D0%BE%D1%8F%D1%80%D0%B4_(%D1%82%D0%B5%D0%BB%D0%B5%D0%B8%D0%B3%D1%80%D0%B0)
5. https://en.wikipedia.org/wiki/Who_Wants_to_Be_a_Millionaire%3F
6. https://en.wikipedia.org/wiki/The_Voice_(franchise)
7.


***Elmi rəhbər: Sevinc Məmmədova***